LDU 1992 LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ
ELMİ XƏBƏRLƏR | Humanitar elmlər seriyası, 1/2026, səh. 24-30

# MÜASİR AZƏRBAYCAN UŞAQ POEZİYASINDA MİLLİ RUHUN BƏDİİ İFADƏSİ

**İlhamə Ağazadə**
Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Uşaq ədəbiyyatı şöbəsi, Bakı, Azərbaycan
e-mail: iahmadova@inbox.ru
ORCİD: 0000-0002-2452-2060
DOİ: https://doi.org/10.30546/2960-1967.2026.1.2037

**Xülasə.** Tədqiqatda müasir Azərbaycan uşaq poeziyası nümunələri əsasında dil problemi iki əsas istiqamətdə - həm vasitə, həm də mövzu kimi araşdırılmışdır. Dil bir millətin varlıq pasportudursa, uşaq ədəbiyyatı bu pasportun ilk səhifələrinin yazıldığı mənəvi təməldir. Klassiklərimizin dil təəssübkeşliyi ənənəsi, bu gün müasir uşaq şairlərinin yaradıcılığında yeni çalarlarla davam etdirilmişdir. 2020-ci il Qarabağ Zəfəri Azərbaycan uşaq ədəbiyyatının leksik məna strukturunda əsaslı dəyişikliklər yaratmışdır. Poeziyada şəhidlik artıq bir kədər və məğlubiyyət rəmzi deyil, milli ucalıq və ölümsüzlük zirvəsi kimi təqdim olunmuşdur. Post-müharibə dövrü uşaq poeziyasında azərbaycançılıq ideologiyası genişlənərək vahid Türk dünyası və bütöv Azərbaycan konsepsiyasına çevrilmişdir. Bu kontekstdə əlifba şeirləri sadəcə oxu və yazı vərdişlərini öyrədən bir vasitə deyil, hər bir hərfin arxasında milli simvolları, tarixi şəxsiyyətləri və coğrafi anlayışları gizləyən ideoloji ensiklopediya rolunu oynayır. Müasir uşaq poeziyasında dialoq formasından istifadə, klassik didaktikadan interaktiv təfəkkürə keçidin ən bariz göstəricisidir. Bu metod uşağı passiv bir dinləyicidən hadisələrin mərkəzində dayanan aktiv bir subyektə və mənəvi qərar verən fərdə çevirir. Təhlil edilən nümunələr göstərir ki, müasir Azərbaycan uşaq poeziyası sadəcə qafiyəli sətirlər yığını deyil. O, uşağı gələcəyin düşünən, soruşan, öyrənən və milli dəyərlərinə sahib çıxan vətəndaşı kimi yetişdirən mənəvi müəllimdir. Ana dilinin saflığı, Zəfər ruhunun qətiyyəti və bəşəri sülh idealları bu poeziyanın sütunlarını təşkil edir.
**Açar sözlər:** Azərbaycan, uşaq, poeziya, milli ruh, ana dili

## Giriş

Qlobal təhlükələrin gücləndiyi bir dövrdə milli kimliyimiz, ana dilimiz bizim ən güclü qoruyucu qalxanımızdır. Dil bir millətin varlıq pasportudursa, uşaq ədəbiyyatı bu pasportun ilk səhifələrinin yazıldığı mənəvi təməldir. Azərbaycan dilinin milli ruhun və özünüdərkin simvoluna çevrilməsi uzun bir mübarizənin nəticəsidir. Milli oyanış prosesi XIX əsrin ortalarında M.F.Axundzadənin əlifba islahatları ilə başlamış, H.Zərdabi, F.Köçərli, C.Məmmədquluzadə, Ə.Hüseynzadə və M.Ə.Rəsulzadə kimi ziyalıların fəaliyyəti ilə geniş vüsət almışdır. Firidun bəy Köçərlinin "Ana dili millətin mənəvi diriliyidir" fikri bu mübarizənin mahiyyətini ən dəqiq şəkildə ifadə edir. Akademik İsa Həbibbəylinin vurğuladığı kimi, XIX əsrin sonlarından etibarən ...azərbaycançılıq məfkurəsi konkret ideoloji forma almağa başlamışdır [7]. "Dilini qorumayan xalqın qılıncı kəsməz" deyiblər. Ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan azərbaycançılıq fəlsəfəsi bu günkü dövlət siyasətinin də prioritet istiqamətlərindən biridir. Belə ki, Prezident İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması, onun dövlət dili kimi nüfuzunun artırılması istiqamətində atdığı qətiyyətli addımlar bu siyasətin ardıcıl və sistemli şəkildə davam etdirildiyini göstərir. Bu yanaşma xüsusilə uşaq ədəbiyyatının, o cümlədən uşaq poeziyasının üzərinə mühüm məsuliyyət qoyur. Çünki uşaqlıq çağında öyrədilən ana dili milli ruhun təməlini formalaşdırır. Bu gün biz uşaqlarımızın əlindən planşeti, telefonu ala bilmərik, amma poeziya vasitəsi ilə onların ruhuna elə bir poetik proqram təminatı yükləyə bilərik ki, bu mənəvi kod ana dilimizin və milli təfəkkürümüzün zədələnməsinə imkan verməsin. Şeir – dilimizin ən etibarlı antivirusu olmalıdır. Unutmamalıyıq ki, ana dilinə sevgi təkcə məlumat səviyyəsində deyil, emosional bağlarla yaradılır.

Tədqiqatın obyektini müasir Azərbaycan uşaq poeziyası nümunələri təşkil edir. Zahid Xəlil, Rafiq Yusifoğlu, İsmayıl İmanzadə, Ramiz Qusarçaylı, Qəşəm Nəcəfzadə, Sevinc Nuruqızı, Mina Rəşid, Gülarə Munis, Gülzar İbrahimova, Əhməd Haqqsevər, Həsən Kür, Allahşükür Ağa, Səlim Babullaoğlu, Zaur Ustac, Əyyub Türkay, Elxan Yurdoğlu, Faiq

Hüseynbəyli və digər uşaq yazarlarının yaradıcılığı təhlilə cəlb olunmuşdur. Yeri gəldikcə, mövzu ilə bağlı müxtəlif elmi araşdırmaların nəticələrindən istifadə edilmişdir.

Uşaq poeziyasında dil iki əsas istiqamətdə - həm vasitə, həm də mövzu kimi aktuallaşır. Sadə, aydın və ahəngdar dil uşağın yaş xüsusiyyətlərinə uyğun ritmik quruluş, bədii obrazlar vasitəsilə müqəddəs dəyər səviyyəsinə yüksəlir. “Poetik dil təkcə həyat hadisələrini, mövcud dövrün vəziyyətini təsvir və tərənnüm etmir, o, fərqli söz mənzərəsi yaradaraq dərin mənalara yol açır” [9, s.16]. Dilə bu cür yanaşma şüurda milli kimliklə birləşərək ideoloji və estetik mühitə çevrilir. Uşaq ana dilinin həzinliyini, şirinliyini və musiqisini ilk növbədə laylalarda, sonra isə onun üçün yazılmış ilk şeirlərdə kəşf edir. Bəxtiyar Vahabzadənin “Səslər” şeirində deyildiyi kimi: “Ana dilimizi bu səslərlə sən, / Qəlbinə, ruhuna həkk edəcəksən [30, s.171]. Şeirdə səs yaddaşı dilin yad təsirlər qarşısında sınağa çəkilməsinə rəğmən mənəvi həkkolunma kimi təsdiqlənir. Xəlil Rza Ulutürk yaradıcılığında dil qorunmalı olan "müqəddəs abidə" kimi təqdim edilir: Kim qoruya bilməyirsə / Öz yurdunu-yuvasını, / Udmasın yurd havasını! / Kim qorumur öz dilini, / İtsin mənim gözümdən / Qoy ilim-ilim! [27, s.166]. Klassik yazarların dil təəssübkeşliyi ənənəsi, bu gün müasir uşaq şairlərinin yaradıcılığında yeni çalarlarla davam etdirilir.

Müasir Azərbaycan uşaq poeziyasında hər bir müəllif ana dilini və vətən sevgisini fərqli bədii çalarlarla ifadə edir. Zahid Xəlilin yaradıcılığı bu baxımdan daha zəngin material verir. Şair klassik folklor ənənələri ilə müasir çağırışları sənətkarlıqla birləşdirir. Onun poeziyası uşağa həm "nərə çəkən" döyüşçü ruhunu, həm də "bənövşə şehini" duyacaq qədər incə estetik baxış qazandırır. Müəllifin "Dəmir yumruq" şeiri müasir tariximizin ən mühüm rəmzini uşaqlar üçün dərk olunan bədii obraza çevirir [13, s.32]. Beş barmağın bir yumruqda birləşməsi xalqın milli vəhdətinin əks etdirir. Bu obraz uşaqlarda "güc birlikdədir" fəlsəfəsini formalaşdıran bir mənəvi bazadır.

Rafiq Yusifoğlunun bədii mətnlərində ana dili və vətən anlayışı insan varlığının ayrılmaz hissəsi — “qan” və “nəfəs” metaforaları ilə ifadə edilir. "Anamın özü kimi, Ana dili müqəddəs, Damarımızda qandı, ciyərimizdə nəfəs" deməklə şair dilin zəruriliyini diqqətə çatdırır. Dil həm də xarici təhdidlərə qarşı kəsərli bir sipər - "Düşmənlərin başına mərmitək enən" müdafiə silahı kimi təqdim edilir [31, s.4]. Bu cür yanaşmalar uşaq təfəkküründə ana dilini qorunmalı ali dəyər kimi ucaldır, milli mənsubluq hissi aşılayır.

Ramiz Qusarçaylının yaradıcılığında dil tarixi yaddaşın bərpası mexanizmi kimi çıxış edir. "Gözün aydın, Qarabağ!" və "İrəvan marşı" kimi əsərlər uşaqların coğrafi-siyasi təfəkkürünü formalaşdırır [20]. Şuşa, Kəlbəcər, Göyçə, Zəngəzur və İrəvan kimi toponimlərin mətndə yer alması uşağın şüurunda "Vətən" anlayışını konkretləşdirir və itirilmiş tarixi torpaqların mənəvi mənsubiyyətini bərpa edir [18]. Müəllifin "İki gül" şeirində qərənfilin "qəm" simvolundan "döyüş ruhuna", Xarıbülbülün isə "həsrət"dən "Qələbə" rəmzinə çevrilməsinin inkişafı uşaq dili ilə izah edilir [19].

2020-ci il Qarabağ Zəfəri Azərbaycan uşaq ədəbiyyatının məna və ifadə strukturunda əsaslı dəyişikliklər yaratmışdır. Deməк, müasir şeirlərdə dil sadəcə estetik funksiya daşımır, həm də milli qələbənin, şəhidlik fəlsəfəsinin və tarixi ədalətin əsas daşıyıcısına çevrilir. Bu motivlər uşaq poeziyasında milli kimliyin, birliyin və ana dilinə sadiqliyin simvolu kimi vahid bir ideoloji sistem formalaşdırır. İsmayıl İmanzadə, Qəşəm Nəcəfzadə kimi müəlliflərin yaradıcılığı bu sahədə yeni estetik istiqamətlərlə seçilir. İsmayıl İmanzadənin "Hər çəməndən bir çiçək" (2023) kitabı gənc nəslin tərbiyəsində "Zəfər" və "Qayıdış" konsepsiyalarını bədii-estetik planda reallaşdıran nümunələrdəndir. Müəllifin yaradıcılığında Qarabağ, xüsusilə Cəbrayıl mövzusu şəxsi yaşantı ilə ümummilli məsələnin vəhdətidir. "Gəlirəm, torpaq, gəlirəm..." [15] və "Xudafərin körpüsü" [16] kimi əsərlərdə rast gəlinən coğrafi adlar (Araz, Diridağ, Kəhriz) uşağın yaddaşında "Vətən xəritəsi"ni canlandırır. Şairin dili ritmikdir; xitablar və nida üslubu şeirlərin yaddaşda asan qalmasını təmin edir. Babək, Xətai və Heydər

Əliyev kimi tarixi simaların obrazları vasitəsilə uşaqlara "Mən azərbaycanlıyam" şüuru və dövlətçilik ideyası aşılanır.

Qəşəm Nəcəfzadə vətənpərvərlik mövzusunu quru təbliğatdan çıxarıb, uşağın gündəlik oyununa və xəyallarına daxil edir. "Bayraq bitib əlimdə" ifadəsi ilə şair qələbə hissini uşağın fiziki varlığına köçürür. "Şuşa qalxıb ayağa" obrazı isə şəhərin dirçəlişini uşaq məntiqi ilə izah edən orijinal tapıntıdır. Müəllifin "Dava-dava oyunu" şeiri isə müharibə və sülh mövzusunun ən humanist həllidir, uşaqların "qumbara" əvəzinə alma atması və sonda onu bölüşməsi müharibənin absurdluğunu, sülhün isə ən böyük nemət olduğunu göstərir [23, s.38].

Uşaq poeziyası sülhün, saflığın təcəssümüdür. 1979-cu ildə Rəsul Rza "Körpələri qoruyaq" şeiri ilə uşaqları "laqeydlik soyuğundan", müharibələrdən qorumağa çağırış edirdi. Allahşükür Ağanın "Bayraq şəkli" şeiri isə bu mövzunun ən təsirli davamıdır:

Mən bayraq çəksəydim
O uşağın şəklini vurardım
Bütün ölkələrin bayraqlarına.
Kim istəməzdi bunu?
O uşağın balaca ayaqlarını elə
çəkərdim ki,
Yer üzündə bütün qumbaralar
Bir anda intihar edərdi [2].

Müəllif bütün insanlara səslənir, hər kəsin ən ali vəzifəsinin məhz uşaqları qorumaq olduğunu xüsusi vurğulayır. Mina Rəşid poeziyası isə zəfər qazanmış bir xalqın övladına intiqam deyil, barış ruhu aşılayır. Onun "Qar yağsın" şeirindəki "Adamlar bir-birinə güllə deyil, qar atsın" arzusu dünyanı nifrətdən təmizləyən paklıq rəmzi kimi çıxış edir [21]. Şairənin uşaq poeziyası Xocalı tarixi travmalarını zəfər coşğusu ilə sağaldan bədii sistemdir. "Qar da Qarabağda sevinir" şeirində təbiət obrazlarını milliləşdirilməsi vasitəsilə azadlıq ideyasını uşaqlara çatdırır [21]. Onun yaradıcılığında "robotlaşma" təhlükəsinə qarşı bir etiraz var: Adam istəsə, bənövşə olar” şeiri dünyanı dəyişmək üçün ilk növbədə "insan" qalmaq lazımdır mesajını verir [22]. “Uşaq” şeirində səmimilik çox zəruridir. Bu ali duyğuya uşaq qəlbi çox həssasdır. Yalnız ürəkdən gələn sözlər, fikirlər, şeirlər ürəyə yol tapa bilir” [1, s.137]. Mina Rəşidin "Ali Baş Komandanım!" şeiri isə rəhbər obrazını qətiyyət və güvən mənbəyi kimi uşaqların mənəvi dünyasına köçürür [21].

Sevinc Nuruqızının yaradıcılığı milli mənlik şüuru ilə uşaq təfəkkürü arasında qurulan körpüdür. Burada ana dili sadəcə ünsiyyət vasitəsi deyil, "əsrlərin sınağından" keçmiş qəhrəman və genetik yaddaşdır, şahidlik zirvəsinin müqəddəsliyini ehtiva edən "Zəfər" dilidir. Müəllif uşağa aşılayır ki, Qarabağın azadlığı həm də dilin mənəvi azadlığıdır. Şairin dili saf, axıcı və musiqilidir: "Baldan şirin, dağdan ağır / Qılıncdan sərt, ana dilim" kimi təzadlı bənzətmələr dilin həm zərifliyini, həm də mübarizə ruhunu ifadə edir [25]. Sevinc Nuruqızı azərbaycançılığı quru ideologiya kimi deyil, sevilməli olan bir "ana laylası" və qorunmalı olan "təndir istisi" kimi təqdim edərək, uşağın mənəvi dünyasını bəşəri duyğularla zənginləşdirir.

Gülzar İbrahimova ana dilini bioloji və psixoloji vəhdətdə — uşağın ruhuna hopan "ilkin qida" və "ana südü" kimi təqdim edir [14]. Onun baxış bucağına görə, uşaq öz dilində danışarkən özünü daha güclü hiss edir. Müəllif müasir dili Dədə Qorqud qəhrəmanlığı və Nizami Gəncəvi hikmətləri ilə əlaqələndirərək, uşaqda "mən böyük bir mədəniyyətin varisiyəm" şüurunu formalaşdırır. Burada dil sadəcə sözlər toplusu deyil, milli kimlik daşıyıcısı kimi qavranılır. Gülarə Munisin mövqeyi isə daha qətiyyətlidir: şairə ana dilini qorumaq hər bir kəsin "namus borcu"dur deyir. Bayrağın "torpaqdan güc alması" və "qartal tək qanad açması" təsvirləri müstəqilliyin əbədiliyini uşağa vizual şəkildə çatdırır [3, s.240]. Gülarə Munisin poeziyasında Heydər Əliyev obrazının “Ey bizə rəhbər baba” formatında təqdimi uşaqlarda dövlət tarixində iz qoymuş bu dahi şəxsiyyətin həyatına maraq yaradır və

gənclərdə varislik duyğusunu möhkəmləndirir. Obraz təsadüfi seçilməyib, çünki “Heydər Əliyev siyasəti ədəbiyyatdan başlayır. O, əvvəl milli məfkurəni, sonra müstəqil dövləti yaratmışdır” [5, s.37]. Bu cür mətnlər lider obrazının mənəvi-siyasi dayaq rolunda dərkinə xidmət edir. Pedaqoji baxımdan yanaşdıqda, “uşağın qarşılaşdığı hadisələr və gördüyü insanlar onun həm o dövrünə, həm də sonrakı həyatına ciddi təsir göstərir” [17, s.233].

**Müasir uşaq poeziyasında şəhidlik** artıq bir kədər və məğlubiyyət rəmzi deyil, milli ucalıq və ölümsüzlük zirvəsi kimi təqdim olunur. Zahid Xəlilin "Poladın arxasınca" şeirində General Polad Həşimovun şəhadəti yeni "poladların" doğuluşu kimi simvolizə edilir [12, s.4]. Müəllif Koroğlu və Nuh tufanı kimi arxetiplərdən istifadə edərək, müasir döyüşü xalqın qədim qəhrəmanlıq tarixi ilə bağlayır. Şəhid obrazının bu cür təqdimatı uşaqlarda qorxmazlıq və vətən uğrunda məsuliyyət hissini formalaşdırır. İsmayıl İmanzadə şəhidlik fenomenini faciəvi kontekstdən çıxarıb "mənəvi ucalıq" müstəvisinə daşıyır. Mina Rəşid "Azərbaycan əsgəri" və "Ana Vətən sənindir şeirlərində əsgər obrazı xalqın haqq səsi və qüdrət rəmzi kimi təsvir olunur" [21]. Şairə qəhrəmanlığı mücərrəd anlayışlarla deyil, real və müasir obrazlarla uşaq dünyasına daxil edir. "Hər şəhid bir bayraqdı" nidası ilə şəhidliyin dövlətin varlığını və ucalığını təmsil edən ali simvol olduğunu vurğulayır [21]. Üçrəngli bayraq burada sadəcə dövlət atributu deyil, milli birliyin və can bahasına qorunan azadlığın rəmzidir.

Post-müharibə dövrü uşaq poeziyasında azərbaycançılıq ideologiyası genişlənərək vahid **Türk dünyası və bütöv Azərbaycan konsepsiyasına** çevrilir. İsmayıl İmanzadə, Gülarə Munis, Zaur Ustac və başqa şairlərin yaradıcılığında "Türkiyə - Azərbaycan" qardaşlığı ideoloji xəttin əsasını təşkil edir. "İki canda bir ürək, iki qolda bir bilək" düsturu ilə 2020-ci il Zəfərinin təməlində dayanan qardaşlıq modeli uşaqlara aşılanır. İ.İmanzadənin Təbriz mövzulu şeirlərində Turan, Göytürk, Urmu və Van kimi anlayışların işlədilməsi uşaqlarda ümumtürk birliyi şüurunu möhkəmləndirir. Zaur Ustacın uşaq şeirləri milli-siyasi coğrafiyamızın poetik xəritəsidir. Klassik poeziyada "həsrət" simvolu olan Araz, Zaur Ustacın təqdimatında hər iki sahili birləşdirən "məlhəm" və "məhrəm" obrazdır. Araz artıq günahkar deyil, yaralı vətən torpağını sağaldan şahiddir. Müəllif Kərkükdən Dərbəndə, Borçalıdan Təbrizə qədər geniş bir coğrafiyanı vəsf etməklə uşağın yaddaşına "Bütöv Vətən" ideyasını həkk edir. "Üç qardaş" şeiri ilə Azərbaycan, Türkiyə və Pakistan dostluğunu uşaq şüurunda "birlikdə güclüyük" mesajı kimi kodlaşdırır [29].

**Əlifbadan Vətənə**

Azərbaycan uşaq poeziyasında əlifba şeirləri sadəcə oxu və yazı vərdişlərini öyrədən bir vasitə deyil, hər bir hərfin arxasında milli simvolları, tarixi şəxsiyyətləri və coğrafi anlayışları gizləyən ideoloji bir xəritədir. Bu metod "assosiativ öyrənmə" prinsipi ilə uşağın şüurunda hər bir fonemi milli dəyərlə eyniləşdirir. Zahid Xəlilin "Kitabların anası" şeiri vətəni abstrakt məkan olmaqdan çıxarıb, onu ata nəfəsi və baba xatirəsi kimi canlı bir varlığa çevirir: *“‘A’da ana deyirəm, ‘V’da vətən kəlməsi. Vətən ulu babamdır, Vətən atamın səsi”* [11, s.200]. Burada vətən anlayışı nəsil şəcərəsinə bağlılıq hissini gücləndirir. İsmayıl İmanzadə və Vaqif Bəhmənli hərfləri uşağın milli mənsubiyyəti ilə əlaqələndirir. Hər bir hərf milli kimliyin sütununa çevrilir [3, s.187]. Sevinc Nuruqızı "Bapbalaca əlifba” kitabı ilə öyrənmə prosesini vizual oyun dünyasına çevirir. Tapmacalar və yanıltmacalar vasitəsilə vətən sevgisini uşağın xəyal dünyasına hopdurur: O, nənəmin yurdudur, / O, babamın yurdudur. / Onu qoruyan, sevən / Bizim şanlı ordudur (Vətən) [24, s.115]. Zaur Ustac rəqəmlər və hərflər üzərində qurduğu dünya ilə təhsil prosesini bir vətənpərvərlik missiyasına çevirir [28, s.4]. Zəfər dövrünün poeziyasında əlifba şeirləri tarixin və müasir qələbənin bədii inikasını ifadə edir. "Ş" hərfi artıq "Şar" deyil, "Şuşa" deməkdir. Bu, uşağın lüğət tərkibinin milli qələbə ruhunda yenilənməsidir. Göründüyü kimi, əlifba şeirləri quru bir tədris materialı olmaqdan çıxaraq azərbaycançılıq ideologiyasının poetik manifestinə çevrilmişdir. "Əlifbam – ana südüm, hər hərfi – bir öyüdüm" fəlsəfəsi ilə uşaq ana dilinin hər bir hərfini mənimsədikcə,

həm də öz soy-kökünü və vətəndaşlıq vəzifələrini öyrənir. Bu, Azərbaycançılığın dil üzərində qurulmuş sarsılmaz bünövrəsidir [16].

"Uşaq şeiri mühüm tərbiyə vasitələrindəndir" [1, s.4]. Poeziyada milli mənlik şüurunun pedaqoji inikası Zaur Ustac, Əyyub Türkay və Elxan Yurdoğlu, Kamil Araz, İbrahim Yusifoğlu və Faiq Hüseynbəyli kimi müəlliflərin yaradıcılığında müasir dövrün tələbinə uğun olaraq, fərqli rakurslardan görünür. Əyyub Türkayın *"Mənim balaca qəhrəmanlarım"* (2023) kitabı 2020-ci il Qarabağ zəfərindən sonra yetişən nəslin mənəvi ehtiyaclarını uğurla ödəyir [26]. Onun üslubunda "şüarçılıq" yerinə "səmimiyyət" ön plana keçir. Kamil Araz və İbrahim Yusifoğlu Şuşa və Ağdamın azadlığını "əsgər inamı" və "zəfər nəğməsi" kontekstində tərənnüm edir. Faiq Hüseynbəylinin *"Ən yaxşı şeir – uşaq özüdür"* fəlsəfəsi uşaq məsumiyyətini bütün bədii gözəlliklərin zirvəsinə qoyur [10, s.32].

**Müasir uşaq poeziyasında dialoq formasından istifadə**, klassik didaktikadan interaktiv təfəkkürə keçidin ən bariz göstəricisidir. Bu metod uşağı passiv bir dinləyicidən, hadisələrin mərkəzində dayanan aktiv bir subyektə və mənəvi qərar verən fərdə çevirir. Əhməd Haqsevərin yaradıcılığında dialoq - Vətənin idrak vasitəsidir. Şairin "Vətən nədir?" şeiri, uşağın ən təbii öyrənmə metoduna — sua l- cavaba söykənir. Şeir Ümid adlı uşağın "Baba, Vətən nədir?" sualı ilə başlayır [6]. Vətənə məhəbbət bir "qoruma borcu" və "müqəddəs ana" obrazı kimi təqdim olunur. Dialoq əsnasında uşaq "Vətən mənimdir, mən də Vətənin" həqiqətini mənimsəyir.

Son illərdə qələmə alınmış ən təsirli nümunələrdən biri də Rafiq Yusfoğlunun "Şar və balaca qız" şeiridir. Dialoq şəklində qurulmuş kədərli mətndə vətənin, azadlığın, milli ruhun simvolu kimi verilən "atanın nəfəsi"nin varis tərəfindən "göz bəbəyi kimi" qorunması, gənc nəslin öz kökünə olan sadiqliyini təmsil edir: "– Özünüzü yormayın, Bu şarın əvəzi var? / – Axı onun içində, / Atamın nəfəsi var..." [32, s.15]. Körpə qəlblərdə müharibənin yaratdığı ağrı heç bir maddiyatla əvəzlənə bilməz.

Həsən Kürün uşaq poeziyasında dialoq sadəcə məlumat ötürmür, o, uşağın daxili ağrısını, qorxusunu və ümidini bədiiləşdirir. Hüseyn Cavidin "Qız məktəbində" (Gülbahar obrazı) şeirinin ənənəsini müasir kontekstdə davam etdirən Həsən Kürdə uşaq mətndə öz dili, sualı və gözləntisi ilə mövcuddur. Müharibənin soyuqluğu uşaq təxəyyülünə uyğun şəkildə poetikləşir: *"Səngər beşik kimi istidir, qızım"* [8]. Burada "beşik" metaforası müharibə dəhşətini uşağın təhlükəsizlik duyğusu ilə əvəzləyir.

Səlim Babullaoğlunun "Oğlumla söhbət" şeiri uşaq məntiqi ilə böyüklərin dünyası arasındakı izah olunmayan boşluqları göstərir [4, s.14]. Uşağın "Niyə?" sualları qarşısında atanın (böyüyün) cavabsız qalması (üç nöqtələr) şeirin ən güclü bədii tərəfidir. Müxtəlif anlayışlar dialoq vasitəsilə süzgəcdən keçirilir. Bu şeirlər uşağı hazır cavablarla deyil, sualların dərinliyi ilə böyüdür. Dialoq formasındakı şeirlərin artması bir sıra üstünlükləri təmin edir: buradakı ritm və intonasiya uşağın düzgün cümlə quruluşlarını və vurğuları mənimsəməsini sürətləndirir. Şeirlərdəki müraciət formaları real həyatda ünsiyyət qurma, sual vermə və fikir ifadə etmə bacarığını modelləşdirir. Vətən, Bayraq və Dil kimi müqəddəs dəyərlər dialoq daxilində "tanış və səmimi" elementlər kimi təqdim olunduğu üçün uşaq tərəfindən daha tez qavranılır.

**Nəticə**

Məqalədə son illərdə qələmə alınmış müasir Azərbaycan uşaq poeziyası nümunələrinin bir qisminin təhlili nəticəsində ümumi mənzərə formalaşdırmağa çalışdıq. Təbii ki, zəngin ədəbi prosesi bir məqalə çərçivəsində əks etdirmək çətindir. Lakin araşdırmaya cəlb olunan bütün bu mətnlər təsdiq edir ki, uşaq poeziyası sadəcə qafiyəli sətirlər toplusu deyil. O, uşağı gələcəyin düşünən, sual verən, öyrənən və dəyərlərinə sahib çıxan vətəndaşı kimi yetişdirən mənəvi təcrübə sahəsidir. Ana dilinin saflığı, Zəfər ruhunun qətiyyəti və bəşəri sülh idealları bu poeziyanın sütunlarını təşkil edir.

## Ədəbiyyat


1. Adilov, M., Mərdanov, V. (2019). Uşaq və şeir. Bakı. Elm.
2. Allahşükür, Ağa (2018) Bayraq şəkli. Kulis.az. 15 mart. https://kulis.az/xeber/edebi-tenqid/xeber_
3. Azərbaycan uşaq antologiyası. (2014). Bakı: Elm və təhsil.
4. Babullaoğlu, S. (2021). Oğlumla söhbətlər. (Seçmə şeirlər) Bakı. "Qanun" nəşriyyatı.
5. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. (2018) Monoqrafiya. Bakı, "Elm və təhsil.
6. Haqsevər, Ə. Uşaq şeirləri. 23.12.2022. https://yazarlar.az/2022/12/23/%C9%99hm%C9%99d-haqsev%C9%99r-usaq- seirl%C9%99ri/
7. Həbibbəyli, İ. (2019). Azərbaycançılıq konsepsiyası. Ədəbiyyat qəzeti, 15 iyun.
8. Həsən, K. Səngər beşik kimi istidir, qızım... 10.08.2025. https://vetensesi.az/page/30/news/42189
9. Həsənova, S. (2024). Poetik əsərlərdə dilin rolu. Azərbaycan dili və ədəbiyyat tədrisi. Elmi-metodik jurnal. 3 (281), 12-19
10. Hüseynbəyli, F. (2020) Ədəbiyyat qəzeti, 5 iyun, 32
11. Xəlil, Z. (2008). Əsərləri. (Uşaqlar üçün şeirlər). Bakı. ADPU nəşriyyatı--
12. Xəlil, Z. (2020). Poladın arxasınca. "Göyərçin jurnalı", 11, s4
13. Xəlil, Z. (2021). Dəmir Yumruq dastanı. Bakı, Teas Press Nəşriyyat evi.
14. İbrahimova, G. Ana dilim, Azərbaycan dilim. https://www.youtube.com/watch?v=akQkwYgoSMw
15. İmanzadə, İ. https://yenises.az/az/posts/detail/ismayil-mercanli-imanzade-gelirem-torpaq-gelirem-1735734137 01.01.2025
16. İmanzadə, İ. https://525.az/news/29334-ismayil-imanzadenin-seirleri_ 11. 12. 2014
17. Kurt, İ. (2015). Uşaq ədəbiyyatının pedaqoji mahiyyəti. Bakı. Qafqaz Universiteti, 19 mart. 233
18. Qusarçaylı, R. (2020). Sevgidi dünyaya qəsdim. Bakı. "Vektor" Beynəlxalq Nəşrlər Evi.
19. Qusarçaylı, R. (2021). İki gül. Ədəbiyyat qəzeti. 17 aprel.- S.14.
20. Qusarçaylı, R. Qalx İrəvan qalasına. 05.09.2023 https://vetensesi.az/page/30/news/15572
21. Mina Rəşidin şeirləri. Hər şəhid bir bayraqdı. 09.10.2023 https://edebiyyatqazeti.az/news/poeziya/10840-her-sehid-bir-bayraqdi
22. Mina Rəşidin şeirləri. Adam İstəsə bənövşə olar. 01.10.2024 https://edebiyyatqazeti.az/news/poeziya/12230-adam-istese-benovse-olar
23. Nəcəfzadə, Q. (2023). Şuşa qalxıb ayağa. Bakı. "Libra kitab".
24. Nuruqızı, S. (2010). Bapbalaca əlifba : Nağıllı, şeirli, tapmacalı, yanıltmaclı və şəkilli əlifba. Bakı, Aspoliqraf.
25. Nuruqızı, S. (2020). Uşaq şeirləri. Ədəbiyyat qəzeti, 17 iyun
26. Türkay, Ə. (2023) Mənim balaca qəhrəmanlarım. Bakı. "İmza" nəşrlər evi
27. Ulutürk, X. R. (2005). Seçilmiş əsərləri. 2 cilddə, I c. Bakı, Şərq-Qərb.
28. Ustac, Z. (2022). Güllünün şeirləri. Bakı. "Ustac.Az" nəşrləri.
29. Ustac, Z. Üç qardaş. 09.11, 2022. https://yazarlar.az/2022/11/09/zaur-ustac-uc-qardas/
30. Vahabzadə, B. (1983) Seçilmiş əsərləri. 2 cilddə, I c. Bakı, Yazıçı
31. Yusifoğlu, R. (2007). Ana dilim (şeirlər). "Göyərçin"in kitabxanası. № 8-9 (629-630) Bakı, "Azərbaycan" nəşriyyatının mətbəəsi
32. Yusifoğlu, R. (2020). Cəh-cəh (şeirlər). Bakı, ADPU nəşriyyatı.

## ARTISTIC EXPRESSION OF THE NATIONAL SPIRIT IN MODERN AZERBAIJANI CHILDREN'S POETRY

**Ilhama Aghazade**

Azerbaijan National Academy of Sciences Nizami Ganjavi Institute of Literature, Department of Children's Literature, Baku, Azerbaijan

In the study, the linguistic aspects of modern Azerbaijani children's poetry were examined as both a medium and a subject. If language is the passport of a nation's identity, then children's literature represents the first pages of this passport. The linguistic dedication of our classics continues today with new nuances in the work of modern children's poets. The 2020 Karabakh Victory has brought fundamental changes to the vocabulary and meaning in Azerbaijani children's literature. In poetry, martyrdom is no longer merely a symbol, but is portrayed as the pinnacle of national greatness and immortality. In post-war children's poetry, the ideology of Azerbaijanism expanded and transformed into the concept of a unified Türkiye world and Azerbaijan. In this context, alphabet poems serve not only as a tool for teaching reading and writing skills, but also as an ideological encyclopedia, embedding national symbols, historical figures, and geographical concepts within each letter. The use of dialogue in modern children's poetry is the clearest indicator of the shift from classical didactics to active engagement. This method transforms the child from a passive listener into an active participant at the center of events and an individual capable of making moral decisions. The analyzed examples show that modern Azerbaijani children's poetry is not merely a collection of rhymed lines; it is a spiritual teacher that cultivates the child as a future citizen who thinks critically, asks questions, learns, and internalizes national values. The purity of the native language, the determination of the spirit of victory, and the ideals of human peace form the pillars of this poetry.
**Keywords:** Azerbaijan, child, poetry, national spirit, native language

## ХУДОЖЕСТВЕННОЕ ВЫРАЖЕНИЕ НАЦИОНАЛЬНОГО ДУХА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ДЕТСКОЙ ПОЭЗИИ

**Ильхама Агазаде**

Институт литературы им. Низами Гянджави при национальной академии наук Азербайджана, кафедра детской литературы, Баку, Азербайджан

В статье языковая проблематика рассматривается в двух основных аспектах — как средство художественного выражения и как предмет осмысления — на материале современной азербайджанской детской поэзии. Язык анализируется как важнейший компонент национальной идентичности, а детская литература — как значимый этап формирования языкового и культурного сознания личности. Традиции бережного отношения к родному языку, характерные для азербайджанской классической литературы, получают новое художественное воплощение в творчестве современных детских поэтов. Отмечается, что события 2020 года, связанные с Победой в Карабахской войне, обусловили изменения в тематике и лексико-семантической структуре детской поэзии. Понятие мученичества в поэтическом дискурсе трансформируется: оно интерпретируется не только как символ утраты, но и как выражение национального достоинства и исторической памяти. В послевоенный период усиливается репрезентация идеологии азербайджанства, которая в ряде текстов соотносится с концепцией единства тюркского мира и идеей целостного Азербайджана. Алфавитные стихотворения рассматриваются не только как дидактический инструмент обучения грамоте, но и как средство трансляции национально-культурных символов, исторических персоналий и географических реалий. Использование диалогической формы определяется как показатель перехода от традиционной дидактической модели к более интерактивному типу художественной коммуникации. Данный прием способствует активизации читательского восприятия и формированию у ребенка навыков самостоятельного нравственного выбора. Анализируемые примеры свидетельствуют о том, что современная азербайджанская детская поэзия выполняет не только эстетическую, но и воспитательную функцию, участвуя в формировании гражданской идентичности подрастающего поколения. В ее основе находятся идеи сохранения родного языка, осмысления исторического опыта и утверждения гуманистических ценностей.
**Ключевые слова:** Азербайджан, детская поэзия, национальная идентичность, родной язык, воспитательная функция

Daxil oldu: 19.01.2026 Çap edildi: 25.05.2026